**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.236**

**GÜLƏR ƏHMƏDLİ***

# MİLLİ MUSİQİ MƏDƏNİYYƏTİNDƏ FORTEPİANO MUSİQİSİNİN TƏŞƏKKÜLÜ VƏ İLK MİLLİ ƏSƏRLƏRDƏ JANR XÜSUSİYYƏTLƏRİNİN FORMALAŞMASI

*Azərbaycan musiqi mədəniyyəti uzun əsrləri əhatə edən əzəmətli inkişaf yolu qət etmişdir. XX əsrin ilk onilliklərinə qədər şifahi ənənələr əsasında formalaşan bu mədəniyyət Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının yaranması ilə tamamilə fərqli mahiyyət kəsb etməyə başlayıb, yeni istiqamətdən inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə də peşəkar bəstəkar nəslini formalaşdıran bəstəkarlıq məktəbi yaranmışdır ki, həmin məktəbin yetirdiyi hər bir bəstəkar klassik qanunauyğunluqların işləndiyi əsərlər külliyyatı yaradaraq, milli musiqi mədəniyyətində yeni təmayüllərin meydana gəlməyini yetişdirmişlər. Həmin dövrdən etibarən milli musiqidə bir mühüm prinsip gözlənilmişdir ki, bu da ənənələrə sadiq qalmaqla yeniliyə daim açıq olub, Avropa klassik musiqisindən bilinən bütün janr, forma xüsusiyyətlərinin milli zəmində işlənməsi prinsipi idi. Azərbaycanda fortepiano musiqisi janrında yazılmış əsərlərdə də bu əsas olaraq götürülmüş, bəstəkarlarımız fortepiano musiqisi janrında yazdıqları əsərlərdə xalq musiqisi, muğam intonasiyalarından bəhrələnməklə klassik forma və janr xüsusiyyətlərini işləmişlər. Bunun da nəticəsində milli fortepiano musiqisi özünəməxsus rəng çalarları ilə zəngin irsə çevrilmiş, bu əsərlərdə janr xüsusiyyətləri ilk növbədə milli üslubu səciyyələndirmişdir.*

*Təqdim olunan məqalədə milli musiqi mədəniyyəti tarixində fortepiano musiqisi janrında ilk musiqili təfsirlərin yaradılması vacibliyinin ortaya çıxma səbəblərindən bəhs edilir. Bu mühüm cəhətin eyni zamanda fortepiano ifaçılıq sənətinin inkişafına göstərdiyi təsir vurğulanır. Qeyd edilir ki, milli musiqi mədəniyyətinin inkişafına yeni yön verən Ü.Hacıbəyli hər nə qədər fortepiano musiqisi janrında əsər yazmasa da, onun yaradıcılığında bütün digər janrlarda olduğu kimi fortepiano musiqisi janrının da konsepsiyası hazırlanır. Bəstəkar xalq mahnı və rəqslərindən nümunələri fortepiano üçün işləməklə bu sahədə ilk mühüm addımları atır ki, burada da xalq musiqisinin əsas zəmin kimi götürülməsi yaradıcılıq fəaliyyəti ilə məşğul olan bəstəkarların əsərlərində xalq musiqisinin mühüm əhəmiyyət kimi diqqətə alınmasına əsas yaradır.*

*Məlum olduğu kimi milli musiqi mədəniyyətində fortepiano üçün ilk əsərlərin müəllifi görkəmli bəstəkar A.Zeynallıdır. O, həm də fortepiano musiqisi sahəsində uşaq repertuarını formalaşdıran bəstəkardır. Məqalədə A.Zeynallının bu istiqamətdə gördüyü işlərə nəzər salınır. Onun fortepiano musiqisi sahəsində yazdığı əsərlərdən nümunələr gətirilərək, qeyd edilir ki, bəstəkar fortepiano musiqisi sahəsində yazdığı əsərlər ilə bu janrda müxtəlifliyin əsasını qoyan sənətkardır. O, süita, fuqa, sərbəst xarakterli fortepiano pyesi yazmış, bu əsərlərdə milli məqamları lad əsası kimi işləmişdir və bu istiqamətdən də Ü.Hacıbəyli ənənələrini davam etdirmişdir. Məqalədə qeyd edilir ki, uşaq repertuarının əsasını qoyan A.Zeynallı "Uşaq süitası"nda sadəcə süita janrının özünəməxsus forma, janr xüsusiyyətlərini işləməmişdir. O, eyni zamanda uşaq psixologiyasına müraciət etmiş, uşaqları düşündürən məsələləri musiqi dili ilə təfsir etmişdir.*

*Məlum olduğu kimi fuqa janrı özünün bütün əhəmiyyəti ilə İ.S.Bax yaradıcılığında özünün evolyusiyasını yaşamış bir janrdır. XX əsrin 20-30-cu illərində Azərbaycanda bu kimi mürəkkəb janra müraciət olunması tarixi əhəmiyyətli nailiyyət idi. Məqalədə bu məsələyə də toxunularaq A.Zeynallının bir bəstəkar olaraq fuqa janrında yazdığı əsərlərdə milli fortepiano musiqisində janrın özünəməxsus xüsusiyyətlərinin ifadə olunmağı vacib cəhətlərdən biri kimi qiymətləndirilir. Qeyd edilir ki, A.Zeynallının fuqalarında "Bayatı-Şiraz" məqamının intonasiyalarına daha çox əhəmiyyət verilməsi bəstəkarın romantik yaradıcılıq təxəyyülünün ifadəsidir. Məqalədə eyni zamanda bu mühüm cəhət kimi diqqətə çatdırılır ki, XX əsrin 20-30-cu illərində fortepiano musiqisinin marş, ballada, variasiya, fuqa, süita kimi janrlarında artıq ilk milli nümunələr yaranmışdır. Bu, həmin sahədə daha böyük işlərə işarə edərək, milli fortepiano musiqisinin inkişaf perspektivliyindən xəbər verir və ifaçılıq sənətinin inkişafında səmərəliliyin təmin olunmağını yetişdirir.*

***Açar sözlər:*** *bəstəkar, əsər, musiqi, pyes, mədəniyyət*

## Giriş

XX əsrin 20-30-cu illəri milli musiqi mədəniyyətinin çiçəklənmə dövrünün ilk mərhələsi kimi xarakterizə edilir. Əsrin əvvəllərində ilk milli opera olan "Leyli və Məcnun"un yaranması qısa zamanda Avropa klassik musiqisinin qanunauyğunluqlarının milli musiqinin özünəməxsus

intonasiya xüsusiyyətləri ilə qovuşdurulması vacibliyini yetişdirir ki, bunun da nəticəsində o dövrə qədər şifahi ənənələr əsasında inkişaf edən musiqi mədəniyyətinin tarixində yeni təmayüllər və istiqamətlər formalaşmağa başlayır. Bu, Avropa musiqisində bilinən istənilən janrın ilk milli nümunələrinin yaradılması sahəsində bəstəkar yaradıcılığında axtarışların təməlini qoydu. Avropa klassik musiqisinin janr xüsusiyyətlərinin bəstəkar yaradıcılığında tətbiqi kortəbii həyata keçirilməmişdir. Azərbaycan bəstəkarlıq məktəbinin təməlini təşkil edən mühüm olan ənənələrə sadiq qalmaq və yeniliyə daim açıq olaraq orijinal xüsusiyyətlərə malik musiqi mədəniyyəti formalaşdırmaq prinsipi həmin illərdə aktual yaradıcılıq problemi kimi bəstəkarları daim düşündürürdü. Ü.Hacıbəyli və silahdaşlarının yaradıcılıq fəaliyyətində milli musiqi mədəniyyətinin inkişaf imkanlarını daha perspektivli dəyərləndirmək və Avropa musiqisində bilinən janrları mənimsəyərək, milli əsərlər yaratmaq hər bir bəstəkar üçün mühüm əhəmiyyətli vəzifə idi. Buna görə də Ü.Hacıbəyli fortepiano musiqisi janrında əsər yazmasa da, onun yaradıcılığında digər janrlarda olduğu kimi fortepiano musiqisinin də milli konsepsiyası hazırlanırdı. Ü.Hacıbəyli fortepianonun ifaçılıq imkanlarına yaxından bələd olmuş və onu peşəkar musiqi sənətində aparıcı alət kimi qiymətləndirmişdir. Buna görə də bəstəkarın yaradıcılıq axtarışlarının bir istiqaməti də fortepiano musiqisi janrında əsərlərin yaradılması probleminə həsr edilmişdir. Təsadüfi deyil ki, bəstəkar yazır: “Bizim aramızda ümumi musiqi sənəti tərəqqi taparsa, bizim də xalq özündə musiqiyə olan bütün istedadını aləmə göstərməyə qadir olar. Bizlərdən də kompozitorlar, pianistlər, artistlər əmələ gəlməklə biz də öz mədəniyyət borcumuzu insaniyyət bazarına çıxara bilərik”. [2. s175] Göründüyü kimi bəstəkar fortepiano alətinin adını xüsusi çəkməklə mədəni nailiyyətlərin dünya mədəniyyətinə inteqrasiya probleminə münasibətini bildirir. Bununla da digər janrlarda olduğu və digər alətlərdə ifaçılığın vacibliyi kimi bəstəkarı fortepiano alətində ifaçılıq və bu alət üçün əsərlər yazmaq problemi dərindən düşündürür. O, bu istiqamətdə ilk addımları ataraq 1925-1945-ci illər ərzində xalq mahnıları və muğam melodiyalarını fortepiano üçün işləyir ki, bu əsərlər də o dövrdə ifaçılıq sənəti ilə məşğul olan gənc musiqiçilərin repertuarında və konservatoriyada həmin ixtisas üzrə təhsil alan gənclərin dərs proqramına salınır. Olduqca sadə melodiya və fakturaya malik əsərlərin əksəriyyəti ansambl nömrəsi kimi işlənmişdir. Özünün lakonik ifadəliliyi ilə onlar müəyyən ideya məzmununu təcəssüm etdirir. Kiçik həcmli bu pyeslərdə özünəməxsus tembr çalarları, dinamik zənginlik mövcuddur. Dramaturgiyanın inkişafında melodiya sağ və sol əllərə ötürülür. Harmoniya milli lad-məqam əsasına malik olub, bir çox pyesdə bas səsinin dayanıqlılığı ilə inkişaf etdirilir. Pyeslərdə “Şur”, “Bayatı-Şiraz” məqamlarının intonasiya xüsusiyyətlərinə üstünlük verilir. Bu pyeslərdən Azərbaycan bəstəkarlarının yaradıcılığında miniatür pyeslərin toplandığı silsilələrdə nümayiş etdirilən janr xüsusiyyətləri öz başlanğıcını götürür. Pyeslərin proqram başlıqları da bu yöndən istiqamətverici vasitə kimi çıxış edir. Belə ki, “Uşaq və buz”, “Laylay” pyesləri buna bariz nümunədir.

**Əsas təhlil**

Azərbaycan musiqi mədəniyyətində fortepiano üçün əsərlər bəstəkarlıq sahəsində ilk peşəkar təhsil görmüş görkəmli sənətkar A.Zeynallının yaradıcılığında meydana gəlmişdir. Ü.Hacıbəylinin rəhbərliyi ilə formalaşan milli bəstəkarlıq məktəbinin istedadlı nümayəndəsi A.Zeynallı dahi ustadının yaradıcılıq ənənələrini davam etdirən ilk bəstəkar kimi onun tərəfindən qarşıya qoyulan vəzifələri ardıcıl və səmərəli şəkildə yerinə yetirməyə çalışmışdır. Gənc bəstəkarın fortepiano musiqisi sahəsində apardığı yaradıcılıq axtarışları klassik fortepiano musiqisi ənənələri ilə milli musiqi intonasiyalarını üzvi şəkildə qovuşdurmaq prinsipinə əsaslanırdı. Bəstəkarın milli fortepiano musiqisi janrında ilk əsərlərindən biri kimi qiymətləndirilən “Çahargah” pyesi də milli lad-məqam əsası və özünəməxsus lakonik ifadə tərzi ilə bu baxımdan əhəmiyyətli əsərdir. Bu əhəmiyyətlilik ilk əvvəl pyesi başdan sona zənginliklərlə dolğunlaşdıran “Çahargah” məqamının lad əsasını təşkil etməyi ilə izah olunur. Fakturası sadə olan və o qədər də mürəkkəb texnikaya əsaslanmayan pyesdə

bəstəkar muğam intonasiyalarını kortəbii şəkildə fortepiano musiqisinə gətirmir. Əksinə onun əsasında zəngin melodiya zənciri yaradır. Bu haqda S.Qasımova yazır: "Çahargah" texniki cəhətdən mürəkkəb olmasa da, parlaq obrazlı pyesdir. Onda intonasiya əsasını muğam təşkil edən müxtəlif epizodlar növbələşir. Bununla birlikdə Zeynallı muğam melodiyasını təqlid etmir, əksinə, özünəməxsus orijinal musiqi yaradır". [3. s88]

"Çahargah" pyesində muğamın şöbələri arasında edilən gəzişmələr dramaturji inkişafı rəngləndirir. Burada muğamın "Bəstə-nigar", "Mayə", "Manəndi müxalif", "Hasar", "Mənsuriyyə" şöbələrinə keçid verilərək, üçhissəli forma daxilində maraqlı kompozisiya xüsusiyyətləri ortaya qoyulur. Bu da klassik qaydaların fortepiano musiqisi janrında tətbiqinin ilk nümunəsi kimi diqqət cəlb edir. Pyesin kənar hissələri lad-məqam əlaqəsinə görə orta hissəyə ziddir. Kənar hissələrdə muğamın "Mayə" və "Mənsuriyyə", orta bölmədə isə "Manəndi müxalif" şöbələrinə istinad edilmişdir. Pyesdə maraqlı nüanslardan biri də repriza bölməsində ilk hissənin mövzusunun oktava fərqi ilə verilməsidir. Əsərdə klassik musiqi elementləri ritmik cəhətdən özünü hiss etdirir. Belə ki, Avropa rəqslərindən olan vals və mazurkanın intonasiyaları ritmik cəhətdən işlənilir. Pyesin 3/4 metrik ölçüsü də bunu göstərir. "Çahargah" pyesinin ümumi tonallığı mi majordur. Müşayiət harmoniya cəhətdən sadədir. Onun hərəkətverici təyinatında T-D əlaqəsi böyük ölçüdə hiss olunur. Melodiyanın inkişafını çərək notlar və punktir ritmli səkkizlik, onaltılıq notlar təşkil edir.

A.Zeynallı fortepiano musiqisi janrında yazılan əsərlərində ilk dəfə müxtəliflik yaradan bəstəkardır. O, "Çahargah" pyesindən başqa bu alət üçün yazdığı pyeslərdə süita janrına xas cəhətləri ümumiləşdirərək 6 pyesi bir silsilədə birləşdirmiş, fuqa kimi mürəkkəb çoxsəsli janrda 9 pyes yazmışdır. Bəstəkarın bu əsərlərdə bir janrı şaxələndirərək, onun tərkibində müxtəlif janr xüsusiyyətləri formalaşdırmaq məqsədi aydın formada hiss olunur. Belə ki, pyeslər ilk yaradıcılıq təcrübəsi olub, milli musiqi ünsürlərinin fortepiano kimi orijinal musiqi alətində ifadə imkanlarını nəzərdən keçirir.

A.Zeynallının fuqa janrında yazdığı 9 pyesdən yalnız ikisi nəşr olunmuşdur. Bu onunla əlaqədar idi ki, onun 9 pyesi içində iki pyes kamil forma və janr xüxsusiyyətlərinə malik olmuşlar. Bununla yanaşı onun bu janrda yazdığı bütün pyeslər milli fortepiano musiqisində janr müxtəlifliyinin formalaşması və fortepiano janrına xas xüsusiyyətlərin özünəməxsus xarakter almağında əhəmiyyətli rol oynamışlar. Bəstəkar fuqalarında "Rast" və "Bayatı-Şiraz" məqamları üzərində kompozisiyalar qurur. Maraqlıdır ki, o, "Bayatı-Şiraz"a daha çox üstünlük verir. Bu sanki A.Zeynallının fərdi bəstəkarlıq üslubuna xas cəhətlərin təzahürüdür. Həmin məqam vasitəsilə lirik ifadə tərzini təcəssüm etdirən A.Zeynallı yaradıcılığının romantik təyinatını müəyyən edir. 1928-1929-cu illərdə yazılan fuqalarda janra xas ciddi ifadəlilik, milli musiqi ilə Avropa musiqisinin intonasiya xüsusiyyətlərinin bir vəhdətdə təqdimi, formaya xas polifonik çoxsəsliliyinin tətbiqi bütün ecazkarlığı ilə diqqət cəlb edir. Fuqalarda bəstəkar İ.S.Bax ənənələrini milli zəmində işləyir. Bütün fuqalar ekspozisiya, işləmə, repriza bölmələrindən ibarət klassik formaya tabe etdirilir. Mövzular arasında intermediyalar, strettalarla keçən inkişaf klassik forma xüsusiyyətlərinin ifadəliliyini təmin edir. I, II, III fuqalar üçsəsli, IV ikisəslidir.

Beşinci fuqadan etibarən fakturada yeni bir cəhət diqqət cəlb edir. Bu da polifonik inkişafda səslərin artırılmasıdır. Bundan sonra yalnız altıncı fuqa ikisəsli, doqquzuncu fuqa isə üçsəslidir. Digərlərindən yeddinci fuqa dörd, səkkizinci fuqa isə beşsəslidir. Beşinci fuqa beşsəsli olub, Lento tempində, 4/4 metrik ölçüsünə əsaslanır. Burada da "Bayatı-Şiraz" ladının intonasiyaları lad-məqam əsası təşkil edir. Mövzu və cavab si-fa diyez mayəli "Bayatı-Şiraz" üzərində qurulub. İşləmədə isə növbəti tonallıq mi mayəli "Bayatı-Şiraz"la ifadə olunur. Repriza strettolarla verilərək mövzunun variantlarla keçməsi ilə yekunu yetişdirir. Altıncı fuqa əvvəlki tonal birliyini davam etdirir. Mövzular lya-mi əlaqəsi üzərində "Bayatı-Şiraz" məqamında keçir. Onun ölçüsü 3/4-dür. Doqquzuncu fuqanı

digər fuqalardan fərqləndirən xarakterik xüsusiyyət onun 12/16 metrik ölçüsü ilə təqdim edilməsidir. Burada eyni zamanda ikili fuqa imkanlarından bəhrələnən bəstəkar yekuna doğru ilk fuqadan etibarən janrın təfsirində tədricən əldə etdiyi təcrübələri ümumiləşdirir. 9 fuqa özünün bədii məzmununa görə milli fortepiano musiqisi sahəsində çoxsəsli planda işlənmiş ilk ən mühüm əsərlərdir.

A.Zeynallı yaradıcılıq konsepsiyasına uyğun olaraq Avropa klassik musiqisində fortepiano musiqisi sahəsində əldə olunan nailiyyətləri mənimsəyərək, milli musiqi mədəniyyətində fortepiano ifaçılığı sənətinin də inkişafına mühüm təsir göstərmişdir. Bu birmənalı olaraq aydındır ki, bəstəkar yaradıcılıq axtarışlarının nəticəsini fortepiano üçün yazdığı əsərlərdə ifadə edir. Burada əsas məqsədlərdən biri də fortepiano ifaçılığında repertuarın zənginləşdirilməsidir. Əgər nəzərə alınsa ki, həmin dövrdə milli ifaçılıq, eyni zamanda bəstəkarlıq sənətinin hələ gənc olmağı ilə əlaqədar olaraq repertuar üçün ədəbiyyat çox az olduğundan ifaçılar xarici bəstəkarların fortepiano musiqisi sahəsində müxtəlif janrlarda yazdıqları əsərlərə müraciət edirdilər, bu həm də vacib sayılan fəaliyyətlərdən biri idi. Çünki milli musiqinin dünya incəsənətinin tərkib hissəsinə çevrilməsinin mühüm şərtlərindən biri incəsənət sahəsində dünyada baş verən dəyişiklikləri izləmək, klassik qanunauyğunluqları mənimsəmək, klassik musiqi ilə xalq musiqisi, muğam incəliklərinin sintezinə əsaslanmaq idi. Bunu bütün gerçəkliyi ilə qavrayan Azərbaycan bəstəkarları da bu istiqamətdən çıxış edirdi ki, A.Zeynallı da milli fortepiano musiqisinin yaradıcısı kimi bu tarixi missiyasını yerinə yetirirdi. Eyni zamanda fortepiano musiqisi janrında uşaq repertuarının əsasını qoyan bəstəkar "Uşaq süitası" ilə P.İ.Çaykovski və R.Şumanın yaradıcılıq ənənələrini milli zəmində işləyirdi. Beş rəngli pyesdə uşaq psixologiyasının fərqli tərəflərinə işıq tutan A.Zeynallı olduqca sadə dramaturgiya ilə böyük ideyalar ifadə etməyi bacarmış, lakonik musiqi fikri ilə milli fortepiano musiqisi janrında maraqlı kompozisiya qurmuşdur. Təsadüfi deyil ki, R.Rzaquliyeva yazır: "Bəstəkar təkcə uşağın psixologiyasını anlamağa, onun fantaziyasına daxil olmağa çalışmır, həm də onu dərk edir. Bu pyeslər uşaqlar, kiçik ifaçılar üçün anlaşıqlıdır, ən çox onların imkanları nəzərə alınmışdır" [1. s327]

Silsiləyə daxil olan əsərlərin - "Kuklaların yürüşü", "Uşaq və buz", "Rast", "Oyun", "Qoyunlar", "Deyişmə" proqram başlıqları var. Burada marş, rəqs, skertso xüsusiyyətlərinə malik pyeslər bir-birini əvəz edir. Bu da öz növbəsində fortepiano musiqisinin janr baxımından şaxələnməsini təmin edir və janr daxilində janr formalaşdıraraq, milli musiqidə fortepiano üçün yazılmış əsərlərdə rəngarəng xüsusiyyətlərin meydana gəlməsini yetişdirir.

Silsilənin birinci pyesi "Kuklaların yürüşü" miniatür xarakterli olub, yumorlu tərzdə təntənəli marşı xarakterizə edir. Pyesin marşvari elementləri Avropa musiqisindən bilinən janr xüsusiyyətlərini daşıyır. "Uşaq və buz"da isə milli musiqinin ecazkar motivləri var. Burada xalq mahnıları əsasında melodik zənginlik yaradan bəstəkar onları işləyir. Bu, üçüncü "Rəqs" adlanan pyesin də zəmininə keçərək, bu dəfə artıq xalq rəqslərinin elementlərinin qabardılması ilə nəticələnir. Müşayiətdə Tonik orqan punktu fon kimi bütün melodiyanı və ya melodik parçaları müşayiət edir. Dördüncü pyes olan "Oyun" zərif, incə tərzli skertsodur. Onun Allegro ilə başlayan kiçik girişindən sonra xarakterin dəyişkənliyi Moderato tempi ilə özünü hiss etdirir. İnkişafda aşıq musiqisinin intonasiyaları hökmranlıq edir. 6/8 ölçüsü melodik xəttə arpeciovari keçidlərin məharətlə bir-birinə ötürülməsində ritmik dayanıqlığı təmin edir. Müşayiətdə bəzən ayrı-ayrı səslər ətrafa səpələnir, bəzən də sağ əlin melodiyasının davamı gətirilir. "Qoyunlar" adlanan növbəti pyesdə isə yenidən xalq mahnısının melodiyaları eşidilir. Son nömrə "Deyişmə"də konflikt dərinləşir. Onun sadə üçhissəli formasının bölmələri, ostinat ritmi bir-biri ilə əlaqələndirir. Pyesin 2/4 ölçülü çox cəld tempi, Presto ilə silsiləni yekunlaşdırır.

XX əsrin 20-30-cu illərində A.Zeynallı öz əsərləri ilə yaradıcılıq fəaliyyəti ilə məşğul olan gənc bəstəkarlar üçün əsl nümunə təşkil edirdi. Ə.Cavid bu istiqamətdə çıxış edən ilk bəstəkarlardan biri olmuşdur. O, fortepiano üçün variasiyaları ilə bir janr daxilində müxtəliflik ortaya qoymağın

mümkünlüyünü diqqətə çatdırır. Bəstəkarın bu sahədəki yaradıcılıq təcrübəsinin məhsulu kimi qiymətləndirilən silsiləsinə daxil edilən 9 variasiya milli ifaçılıq sənətində repertuar zənginliyini formalaşdırmaqla yanaşı janrın ilk nümunələrindən biri olur. Ümumiyyətlə əsərlərində romantik təfəkkür ifadə edən Ə.Cavid "9 variasiya"da da bu yoldan çıxış edir. Onun variasiyalarında dramaturji inkişaf incə zərif elementlərlə təmin edilir. Silsilədə variasiya janrının özünəməxsus forması işlənmişdir. Mövzu və onun variantları lakonik ifadə tərzi ilə işlənilir. Lakin bu lakonizmdə olduqca emosional ifadə gücü var. Mövzunun variantlığı bütün silsiləni bir vəhdətdə birləşdirir. Bütün variasiyalar bir-birini məntiqi ardıcıllıqla əvəz edir. Bu sıralamada emosional melodik zənginliklər kulminasiyanı fəth edir.

Ə.Cavid fortepiano üçün yazdığı "Marş" və "Ballada" pyeslərini tamamlaya bilməmişdir. Bununla yanaşı həmin əsərlər XX əsrin 20-30-cu illərində fortepiano musiqisi sahəsində aparılan yaradıcılıq axtarışlarından xəbər verərək, janrın şaxələnməsi və ona məxsus xüsusiyyətlərin bədii həllini yetişdirir.

**Nəticə**

XX əsrin 20-30-cu illərində fortepiano musiqisi janrında yazılan hər bir əsər musiqi mədəniyyətinin şaxələnərək inkişafını təmin edir. Bu sadəcə bəstəkar yaradıcılığında deyil ifaçılıq sənətində də özünü büruzə verirdi. Belə ki, ifaçılıq təcrübəsindən irəli gələrək repertuarın zənginləşdirilməsi vacibliyindən yola çıxan və fortepiano musiqisi janrında əsər yazan bəstəkarlar milli fortepiano ifaçılığı sənətinin formalaşması və təkmilləşməsi prosesini sürətləndirirlər. Bunun əksinə ifaçılar milli sənət nümunələrini repertuarlarına daxil edərək, bəstəkarlıq sahəsində fortepiano musiqisinin janr xüsusiyyətlərini daha kamil formada işlənməsini təmin edirdilər. Bu, yeni-yeni nailiyyətlər əldə olunaraq hər iki sahənin mükəmməl şəkildə inkişafını təmin edirdi. İlk təcrübələrdən də aydın olduğu kimi, XX əsrin 20-30-cu illərində fortepiano musiqisinin marş, ballada, variasiya, fuqa, süita kimi janrlarında artıq ilk milli nümunələr yaranmışdır ki, bu, həmin sahədə daha böyük işlərə işarə edərək, milli fortepiano musiqisinin inkişaf perspektivliyindən xəbər verirdi.

## ƏDƏBİYYAT

1. "Azərbaycan musiqi tarixi" Bakı: "Elm"-2017
2. Hacıbəyli Ü. "Seçilmiş əsərləri Bakı: "Yazıçı"-1985
3. Qasımova S., Bağırov N. "Azərbaycan sovet musiqi ədəbiyyatı" Bakı: "Maarif"-1984

***Naxçıvan Dövlət Universiteti***
***Musiqi tənqidi ixtisaslaşması üzrə II kurs magistrant***
***E-mail: gulerehmedli38@gmail.com***

**Gular Ahmedlı**

## THE FORMATION OF PIANO MUSIC IN NATIONAL MUSICAL CULTURE AND THE FORMATION OF GENRE FEATURES IN EARLY NATIONAL WORKS

Azerbaijani music culture has traversed a significant path of development spanning centuries. Until the first decade of the 20th century, Azerbaijani music culture, shaped primarily by oral traditions, began to take on a completely different nature with the creation of Uzeyir Hajibeyli's opera

"Leyli and Majnun", marking the onset of a new stage of development in a different direction. During this epoch, a composer school emerged, shaping a generation of professional composers. The works produced by this school adhered to classical principles, creating a repertoire where each composer incorporated classical norms, thus fostering the emergence of new trends in Azerbaijani music culture. From that era onwards, a significant principle was anticipated in Azerbaijani music, which was to stay loyal to traditions while remaining constantly open to innovation, adhering to the principle of integrating all the characteristics of genres and forms recognized in European classical music into the national framework. In Azerbaijan, this principle has also been applied in works written in the genre of piano music, where our composers have enriched classical forms and genre characteristics by infusing elements of folk music and mugham intonations into their compositions in the piano music genre.

As a result, Azerbaijani national piano music has been enriched with its distinctive color palette, transforming into a rich heritage. In these compositions, genre characteristics primarily serve to delineate the national style. The presented article discusses the emergence of the necessity to create the first musical interpretations in the genre of piano music in the history of Azerbaijani music culture. The article also emphasizes the significant influence this aspect had on the development of piano performance art. It is noted that Uzeyir Hajibeyli, who gave a new direction to the development of national music culture, may not have composed works in the genre of piano music, but the concept of the piano music genre is prepared in his creativity as it is in all other genres. The composer takes the first significant steps in this field by adapting examples of folk songs and dances for the piano, where the foundation of folk music is considered. This lays the groundwork for the important consideration of folk music in the works of composers engaged in creative activity.

As it is known, the author of the first works for piano in Azerbaijani national music culture is the distinguished composer A. Zeynalli. He is also a composer who developed repertoire for children in the field of piano music. The article examines A. Zeynalli's contributions in this direction. Examples of his works in the field of piano music are provided, noting that the composer is an artist who laid the foundation for diversity in this genre with his compositions in piano music. He has composed suites, fugues, and free-form piano pieces, incorporating national modes as the basis in these works, continuing the tradition in this direction, as did Uzeyir Hajibeyli. The article notes that A. Zeynalli, who laid the foundation for children's repertoire, did not simply adhere to the distinctive form and genre characteristics of the suite genre in his "Children's Suite." He also appealed to child psychology, interpreting issues that engage children through the language of music.

As it is known, the fugue genre underwent its evolution with all its importance in the creativity of J.S. Bach. In Azerbaijan, the historical significance of resorting to such a complex genre in the 20th and 30th centuries was a significant achievement. In the article, this matter is also addressed, and A. Zeynalli's compositions in the fugue genre are valued as an important aspect in expressing the distinctive features of the national piano music genre. It is noted that in A. Zeynalli's fugues, giving more importance to the intonations of the "Bayati-Shiraz" mode is an expression of the composer's romantic creative imagination. The article also highlights this important aspect, noting that in the 20th and 30th centuries, the first national examples in genres such as march, ballad, variation, fugue, and suite had already been created in piano music. This indicates greater works in this field, heralding the development prospects of national piano music and ensuring productivity in the advancement of performance art.

**Key words**: *composer, work, music, piece, culture*

**Гулар Ахмеди**

## ФОРМИРОВАНИЕ ФОРТЕПИАННОЙ МУЗЫКИ В НАЦИОНАЛЬНОЙ МУЗЫКАЛЬНОЙ КУЛЬТУРЕ И ФОРМИРОВАНИЕ ЖАНРОВЫХ ОСОБЕННОСТЕЙ В РАННИХ НАЦИОНАЛЬНЫХ ПРОИЗВЕДЕНИЯХ

Музыкальная культура Азербайджана прошла славный путь развития, охватывающий многие столетия. Эта культура, формировавшаяся на основе устных традиций вплоть до первых десятилетий 20 века, с созданием оперы У. Гаджибейли «Лейли и Меджнун» начала приобретать совершенно иную сущность и вступила в этап развития с нового направления. На этом этапе сформировалась композиторская школа, сформировавшая поколение профессиональных композиторов, каждый композитор этой школы создал сборник произведений, в которых были разработаны классические правила, и способствовал возникновению новых тенденций в национальной музыкальной культуре. От этого периода в национальной музыке ожидался один важный принцип - принцип работы на национальной основе всех жанровых и формовых особенностей, известных из европейской классической музыки, при сохранении верности традициям. Это было взято за основу в произведениях, написанных в жанре фортепианной музыки в Азербайджане, а наши композиторы в своих произведениях, написанных в жанре фортепианной музыки, использовали народную музыку и интонации мугама, развивая классическую форму и жанровые особенности. В результате этого национальная фортепианная музыка превратилась в богатое наследие с неповторимыми цветовыми оттенками, жанровые особенности в этих произведениях характеризуют прежде всего национальный стиль.

В представленной статье говорится о причинах возникновения значения создания первых музыкальных интерпретаций в жанре фортепианной музыки в истории национальной музыкальной культуры. При этом подчеркивается влияние этого важного аспекта на развитие искусства фортепианного исполнительства. Отмечается, что хотя У.Гаджибейли, давший новое направление развитию национальной музыкальной культуры, не писал произведений в жанре фортепианной музыки, в его творчестве развита концепция жанра фортепианной музыки, как и во всех других жанрах. Композитор делает первые важные шаги в этой области, разрабатывая образцы народных песен и танцев для фортепиано, где принятие народной музыки за основную основу создает основу для рассмотрения народной музыки как важной в творчестве композиторов, занимающихся творческой деятельностью.

Как известно, автором первых произведений для фортепиано в отечественной музыкальной культуре является выдающийся композитор А. Зейналлы. Он также является автором детского репертуара в области фортепианной музыки. В статье рассматривается работа А. Зейналлы в этом направлении. Приводя примеры своих произведений в области фортепианной музыки, отмечается, что композитор является художником, заложившим своими произведениями в области фортепианной музыки основы многообразия в этом жанре. Он написал сюиту, фугу, фортепианную пьесу свободной формы, в которой в качестве тональности использовал национальные моменты, и продолжил традиции У. Гаджибейли в этом направлении. В статье отмечается, что А. Зейналлы, заложивший основы детского репертуара, не просто использовал в «Детской сюите» уникальные формы и жанровые особенности жанра сюиты. В то же время он обратился к детской психологии и интерпретировал вопросы, о которых думают дети, языком музыки.

Как известно, жанр фуги – жанр, переживший свое развитие в творчестве И.С. Баха во всей его значимости. В 20-30-е годы 20 века обращение к такому сложному жанру в Азербайджане было исторически значимым достижением. Касаясь этого вопроса в статье, произведения А. Зейналлы, написанные в жанре фуги как композитора, рассматриваются как один из важных аспектов выражения самобытных особенностей жанра в национальной фортепианной музыке. Отмечается, что придание большего значения интонациям момента «Баяты-Шираз» в фугах А. Зейналлы является выражением романтического творческого воображения композитора. При этом в статье подчеркивается как важный аспект то, что в 20-30-х годах XX века были созданы первые отечественные образцы таких жанров фортепианной музыки, как марш, баллада, вариация, фуга, сюита. Он указывает на большую работу в этой области, информирует о перспективах развития национальной фортепианной музыки, способствует эффективности развития исполнительского искусства.

**Ключевые слова:** *композитор, произведение, музыка, пьеса, культура*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**